## Tarix və coğrafiya fakültəsinin tarixi haqqında məlumat

*"Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır"*

***Heydər Əliyev***

1924-cü ildə çap olunmuş "Azərbaycan Ali Pedaqoji İnstitutun Səlnaməsi" kitabında deyilir: - "Azərbaycanda müxtəlif məntəqələrdə açılmış 3 və ya 4 aylıq müəllim kurslarında metodiki baxımdan lazımı səviyyədə, I və II dərəcəli məktəblər üçün yüksək səviyyədə bilik və bacarığa malik müəllimlər yetişdirmək mümkün deyildir. Kurs müdavimləri məktəblərdə oxuduqları dərsləri burada nəzəri və tətbiqi olaraq hazırlamalı idilər. 17 yanvar 1921-ci ildə Bakı şəhərində 1 illik Ali Pedaqoji Kursu açıldı və 150 nəfər qəbul oldu. (Kurslar 3 seksiyaya bölünürdü-rus, türk və erməni. Kursun rəhbəri F.A.Rzabəyli idi) Bundan əlavə kəndi məlumatlarını doldurmaq üçün ümumi pedaqoji məlumata dəxi artıq dərəcədə eytiyacları vardır..."

"Azərbaycan birinci dövlət türk zukür ali pedaqoji institutu"nun"I.Ümumi qismi"nin 9-ci bəndində göstərilir ki:

9. İxtisas sinifləri uç ğrupa ayrılırlar:

1) Tarix-ədəbiyyat;
2) Təbiyyat-coğrafiya;
3) Fizika-riyaziyyat."

Salnamədən görünür ki, 1921-ci ilin avqust ayında Nəriman Nərimanovun "Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutunun təşkili haqqında"kı dekretinə əsasən yalnız noyabr ayında fəaliyyətə başlayan institutun ilk öncə yuxarıda göstərilən 3 şöbəsindən birincisi məhz **Tarix-ədəbiyyat** olmuşdur. Azərbaycanın Sovet imperiyasının tərkibinə zorla qatılması, respublikada mövcud olan musavat hökumətinin süqutu, milli-tarixi, ictimayi-siyasi vəziyyətin mövcudluğu məhz Tarix-ədəbiyyat şöbəsinin açılmasını ön plana çıxartmışdı. Yetişməkdə olan gənclərə həm xalqın yaşadığı tarixi keçmişini öyrətmək, həm də ana dilinin bədiiləşdirilməsini, hər kəsin düzgün, qramatik şəkildə yazıb-oxumasını təmin etmək aktuallıq kəsb edirdi. Bu səbəbdən də tarix və ədəbiyyat birinci yerdə qərarlaşmışdı.

ADPİ-nin 29 sentyabr 1931-ci il iclasının nəticəsi olaraq tədris prosesinin və elmi-metodiki işlərin səmərəli və keyfiyyətli təşkili və fəaliyyəti üçün mərkəz sayılan kafedralar yaradıldı. İnstitutun 19 kafedrasından 3 kafedra Tarix şöbəsinin payına düşdü:

1. SSRİ tarixi-kafedra müdiri prof.B.N.Tixomirov;
2. Qərb tarixi-kafedra müdiri prof.P.P.Fridolin;
3. Yaxın Şərq tarixi-kafedra müdiri dos.A.S.Bukşpan oldu.

15 may 1934-cü ildə Sovet hökuməti tərəfindən məktəblərdə vətəndaş tarix və coğrafiyasının tədrisi haqqında yeni Qərarlar verilmişdi. Qərardan sonra, əvvəllər **Tarix-sosial elmlər** adı altında fəaliyyət göstərən fakültənin strukturu dəyişdirildi. **Müstəqil Tarix fakültəsi yaradıldı.** Fakültədə professorlardan V.M.Xuluflu, E.S.Nikolayev, E.İ.Baybakov, E.A.Paxomov, A.P.Kuzovenko, dosentlərdən isə S.A.Əyyubova, A.İ.Sultanova, Q.K.Qasımzadə və başqa tarixçilər fəaliyyət göstərirdilər.

Sovet hakimiyyətinin ilk illərinin **ibtidai siniflərinin Tədris planına** nəzər saldıqda, həftəlik saatların miqdarına görə (I-IV siniflər üzrə) **rus dili** fənni I sinifdə 15, II sinifdə 14, III sinifdə 15 saat və IV sinifdə 8 saat tədris edildiyi halda (cəmi il ərzində 1716 saat), **tarix** fənni yalnız IV sinifdə 2/3 saat olmaqla cəmi 83 saat tədris edilirdi. Ən böyük problem dərs saatının azlığı deyildi, əsas məsələ bu saatlarda şagirdlər hansı tarixi öyrənməliydi? Tədris planındakı izaha əsasən tarix fənninin əsas məqsədi: 1905-ci il inqilabının və 1917-ci ildə böyük oktyabr sosialist inqilabının sayəsində xalqların azad olması, kommunist partiyasının sayəsində respublikaların siyasi inkişafı, təsərrüfatının və mədəniyyətinin müasir şəraitdə təkmilləşdirilməsi, fəhlə və kəndlilərin ağalara qarşı üsyanı sosialist inkişafın yolunu açmış olduğunu dərk etməyi öyrətməlidir. Şagirdlər SSRİ-nin tarixini öyrənməli, oktyabr inqilabında V.İ.Leninin və İ.V.Stalinin rəhbərliyi sayəsində kommunizmə doğru ölkənin irəliləyişini anlamalı və qəlblərində məhəbbət oyanmalıdır.

İzahdan aydın olur ki, şagird öz xalqının keçmişini, başına gətirilən faciələri öyrənməməlidir, sadəcə Sovet hökumətinin ona xoşbəxtlik gətirdiyinə kor-koranə məhəbbət bəsləməlidir.

**7 illik məktəblərdə** istifadə olunan Tədris planında tarix fənninin həftəlik saatlarının miqdarı aşağıdakı kimi verilmişdir:

I-IV siniflərdə-3 saat;

V sinifdə-2 saat (ilk insan cəmiyyətləri barədə girişdən sonra Şərqi və qədim Yunanıstan öyrədilirdi);

VI sinifdə-3/2 saat (qədim Roma və orta əsirlərin ilkin mərhələsinin tarixi öyrədilirdi);

VII sinifdə-2 saat (orta əsirlərin sonu və yeni eranın başlanğıcı, Fransa burjua inqilabı 1789-cu il tədris edilirdi).

İl ərzində tarix fənni cəmi 313 saat tədris edilirdi. (Rus dili isə 2508 saat).

Məktəblər üçün hazırlanmış fənn Proqramında tarix fənninin tədrisinin izahında deyilirdi:

Tarix kursu böyük tərbiyəvi əhəmiyyətə malikdir, şagirdlərə marksizim-leninizm ideyalarını dərk etməyə kömək edir.

**Orta məktəblərin** Tədris planında tarix fənninin həftəlik saatlarının miqdarı aşağıdakı kimidir:

Əvvəlki I-VII siniflərdə 9,5 saat;

VIII, IX və X siniflərin hər biirndə 4 saat, il ərzində cəmi 709 saat tədris edilir.

Tədris planının tarix fənninə aid izahında deylir:

-VIII sinifdə tarix kursu yeni dövrlə bitir, IX-X siniflər isə SSRİ tarixini öyrənməlidir. Şagirdlər burjua inqilabı ilə sosialist inqilablarının əsas ideyasını dərk etməlidirlər. SSRİ tarixi sovet ölkəsinə məhəbbət aşılamalıdır. Şagirdlər ölkədə hökumət, təsərrüfat, mədəniyyət quruculuğunu və vilayətlərdə sosialist həyatın inkişafını dərk etməlidirlər.

SSRİ Xalq Komissarları Sovetinin və SSRİ Mərkəzi Komitəsinin **15 may 1934-cü ildə "Məktəblərdə vətəndaş tarixinin tədrisi haqqında" Qərarı** qəbul edildi. Qərada deyilirdi:

-Dərsliklər və tədrisin özü mücərrət, sxematikdir. Vətəndaş tarixində ən əhəmiyyətli hadisələrin və faktların xronoloji ardıcıllıqla təqdim edilməsi, tarixi şəxsiyyətlərin xüsusiyyətləri ilə canlı əyləncəli bir formada öyrətmək əvəzinə, şagirdlərə sosial-iqtisadi formasiyaların mücərrəd tərifi verilir.

Tarix kursunun tələbələr tərəfindən möhkəm mənimsənilməsinin həlledici şərti, tarixi hadisələrin təqdimatında xronoloji ardıcıllığa riayyət edilməsidir ki, bu da şagirdlərin yaddaşına vacib tarixi hadisələri, tarixi şəxsiyyətləri, xronoloji tarixləri yazmaq məcburiyyətindədir. Yalnız belə bir tarixi kursu tələbələr üçün lazım olan tarixi materialın əlçatanlığını, aydınlığını və

konkretliyini təmin edə bilər ki, bunun əsasında tarixi hadisələrin düzgün təhlili və düzgün ümumiləşdirilməsi mümkündür, bu da tələbəni tarixin marksist anlayışına aparır.

Buna uyğun olaraq SSRİ Xalq Komissarları Soveti və SSRİ Mərkəzi Komitəsi qərar verir:

1. 1935-ci ilin iyun ayına qədər aşağıdakı yeni tarix dərsliklərini hazırlayın:

a) qədim dünya tarixi;

b) orta əsirlər tarixi;

c) yeni tarix;

d) SSRİ tarixi;

e) asılı və müstəmləkə ölkələrin yeni tarixi.

2. Qədim tarix dərsliyi hazırlayan qrupların üzvlərinin aşağıdakı siyahısı təsdiq edilsin:

-Qədim dünya tarixi: prof.S.İ.Kovalyev (rəhbər), akademik N.M.Nikolski, A.S.Svanidze və prof.A.V.Minulin.

-Orta əsirlər tarixi: prof.E.A.Kosminski (rəhbər), prof. A.İ.Qukovski, O.V.Traxtenberq və A.İ.Malışev.

-Yeni tarix: akademik N.M.Lukin (rəhbər), prof. Q.S.Fridlyavd, prof. B.M.Dalin, prof.Q.S.Zaydel və dos. A.V.Yefimov.

-SSRİ tarixi: professor N.N.Vanaq (rəhbər), professor B.D.Qrekov, professor A.M.Pankratova və professor S.A.Piontkovskiy.

-Asılı və müstəmləkə ölkələrinin yeni tarixi: K.B.Radek (rəhbər), X.Z.Qabudulin, prof.N.İ.Konrad, A.S.Muxarci, M.C.Qodes, M.D.Kokin, L.İ.Madyar, P.A.Mif və F.A.Potşteyn.

3. Tarix üzrə ixtisaslı mütəxəssislər hazırlamaq, 1 sentyabr 1934-cü ildən etibarən Moskva və Leninqrad Universitetlərinin tərkibində olan Tarix fakültələrinin hər birində təhsil ili 5 il olmaqla, 150 nəfərlik tələbə qəbulu müəyyən etmək.

**SSRİ Xalq Komissarları Sovetinin sədri: V.Molotov.**
**SSRİ Mərkəzi Komitəsinin katibi: İ.V.Stalin.**

**15 may 1934.**

Göründüyü kimi orta məktəbdə tarixin tədrisinə qoyulan tələblər, institutun da tarix dərslərinin məzmununda əks edilməliydi. Bu proqramdan aydın olur ki, ölkəmizdə yaşayan və böyüyən gənc nəsl Azərbaycan tarixini öyrənmək əvəzinə, imperiyanın təqlid etdiyi saxta tarixi mənimsəməliydilər. Buna görə də institut müəllimlərinin çiyinlərinə olduqca ağır bir yük düşürdü. Azərbaycan tarixini geniş mənada Elmi-tədqiqat sahəsinə çevirmək!

1934-cü il Tarix ixtisasının həyatında elmi-tədqiqat işlərinin inkişaf etməsi və istiqamətlərin genişləndirilməsi kimi tarixə düşdü. Bir sıra alimlər tərəfindən olduqca zəngin tədqiqat işlərinin aparılması sayəsində elmi-tarixi kitablar yazılaraq nəşr edildi. Xüsusi ilə də, SSRİ-nin və Şərq ölkələrinin tarixinə aid kitablar işıq üzü gördü. Prof.Vəli Xuluflu əsasən Səlcuq dövlətinin tarixi, prof.B.N.Tixomirov "Rusiyada feodalizm problemləri", dos.A.Q.Salamzadə "Azərbaycanda rəncbərlik", A.Y.Seyidov isə "Tarixdə xronologiyanın yeri və rolu"məsələlərinə həsr edilmiş mövzuları mükəmməl şəkildə araşdırmışdır. Tarix alimləri Elmi-tədqiqat işlərinin aparılması ilə yanaşı, Ümumittifaq konfranslarında da fəal iştirak edirdilər. 1934-cü ildə Leninqrad şəhərində keçirilən Tarixçilərin ümumittifaq konfransında iştirak etmək üçün prof.B.N.Tixomirovvə dos.A.Q.Salamzadə Rusiyaya ezam olundular. Prof.B.N.Tixomirovun çıxışını tarixçi alimlər al-qışlarla qarşıladılar.

1937-1938-ci tədris ilində ADPİ-nin 286 azərbaycanlı tələbələrinin 38-i məhz tarix fakültəsinin payına düşürdü. Tarix fakültəsində çalışan professor-müəllim heyətinin ciddiliyi, tələbkarlığı və idarəçilik qabiliyyəti tələbələrinin xarakterində özünü əks edirdi. Elə bu xarakterik

xüsusiyyətlərə malik olan məzunların Respublikanın müxtəlif bölgələrində rəhbər vəzifələrə irəli çəkilmələrinə səbəb olurdu. Bu da tarix ixtisasının tədricən yerlərdə əhali arasında populyarlaşmasına gətirib çıxardırdı və fakültədə tələbələrin say artımında da hiss olunurdu. Belə ki, 1939-cu ildə fakültənin tələbələrinin sayı 227 nəfər olmuşdu.

1939-1940-cı illərdə kafedraların əməkdaşlarının Elmi-tədqiqat işlərinə fəal başlaması tarixçi alimlərin də sayının artmasında aydın nəzərə çarpırdı. Uğurla dissertasiya müdafiə etmiş C.A.Rəhimov (Ümumi tarix kafedrası), M.X.Şərifli və E.B.Şükürzadə (SSRİ tarixi kafedrası) ADPİ-nin ilk azərbaycanlı alimləri kimi tarix fakültəsinin tarixinə düşmüş oldular.

**1 oktyabr 1943**-cü ildə ADU-nun tərkibindən ayrılaraq **ADPİ müstəqil fəaliyyətə** başladı. Müstəqil institutun 5 fakültəsindən biri olan Tarix fakültəsinin (dekan C.M.Əfəndiyev, sonra C.M.İbrahimov oldu) professor-müəllim heyəti müstəqilliyin ilk günlərindən daha əzmlə çalışmağa başladılar. İnstitut həyatında aparıcı rola malik olan Tarix fakültəsinin 2 kafedrası fəaliyyət göstərirdi:

-Ümumi tarix kafedrası-müdiri dos.A.S.Sumbatzadə;

-Azərbaycan tarixi kafedrası-müdiri dos.İ.A.Hüseynov idi.

Müstəqil Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının açılması və fəaliyyət göstərməsi azərbaycanlı tarixçilərin bəlkə də ən böyük uğuru idi. Kafedranın müstəqil fəaliyyət göstərməsi Azərbaycan Respublikasının və Azərbaycan xalqının tarixini yüksək səviyyədə tədqiq etməyə imkanlar açmaqdaydı. Bu da gələcəkdə Azərbaycan tarixinə aid yeni-yeni Elmi-tədqiqat işlərinin aparılmasına və yüksək səviyyəli elmi əsərlərin-dissertasiyaların yazılmasına yol açmış oldu.

1949-1950-ci tədris ilində tarix elmi üzrədərs deyən 13 pedaqoqdan 3-ü elmlər namizədi (fəlsəfə doktoru) idi. 1954-1955-ci tədris ilində SSRİ tarixi üzrə B.S.Qurbanov, A.P.Əliyev, Kommunist partiyası tarixi üzrə isə S.K.Verdiyev və Ş.A.Haxverdiyev dissertasiya müdafiə edərək elmlər namizədi adını aldılar.

1951-ci ildə ADPİ-nin tarix ixtisası üzrə 94 məzunu olduğu halda, nədənsə 1958-cu ildə bu rəqəm 3 dəfə azalaraq 32 nəfərə enmişdi. Belə azalmalar əsasən bölgələrdə ixtisasın kifayət qədər təbliğ edilməməsindən və qəbulun olduqca ciddi təşkil edilməsindən qaynaqlanırdı.

1956-1957-ci tədris ilində ADPİ-nin 33 kafedrası ixtisar olaraq birləşmələrlə müşayyət olundu və Kommunist partiyasının tarixi (müdir dos.M.Y.Vəkilov), SSRİ tarixi (müdir dos.C.M.İbrahimov) Ümumi tarixlə birləşdirildi.

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin **5 noyabr 1959-cu il tarixli 952 №-li**“Azərbaycan SSR məktəblərində tarix fənninin tədrisinə bəzi dəyişikliklər edilməsi haqqında” Qərarı verildi və qərarda göstərilirdi:

**1.** “Məktəblərdə tarix fənninin tədrisinə bəzi dəyişikliklər edilməsi haqqında” Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin 8 oktyabr 1959-cu il tarixli qərarı rəhbərlik və icra üçün qəbul edilsin!

**2.** Azərbaycan SSR məktəblərində tarix fənnindən dərslər aşağıdakı qaydada keçilsin:

-IV sinifdə-SSRİ tarixindən epizodik hekayələr;

-V sinifdə-qədim dünya tarixinin elementar kursu;

-VI sinifdə-orta əsirlər tarixinin elementar kursu;

-VII-VIII siniflərdə-Sovet dövlətinin ictimai və dövlət quruluşu haqqında ən mühüm, habelə xarici ölkələrin yeni və ən yeni tarixindən məlumat verilməklə SSRİ tarixinin elementar kursu.

**3.**“Azərbaycan SSR məktəblərində və ali məktəblərində Azərbaycan tarixinin tədrisi haqqında” Azərbaycan KP Mərkəzi Komitəsi bürosunun 1 iyul 1958-ci il tarixli Qərarının 1-ci bəndi dəyişdirilərək müəyyən edilsin ki, 1960-cı il sentyabrın 1-dən başlayaraq Azərbaycan tarixi

SSRİ tarixinin ümumi kursuna daxil olmaqla, respublika məktəblərində IV, VII-VIII, IX-XI siniflərdə öyrənilir, bunun üçün isə 51 saat ayrılması tədris planında nəzərdə tutulur.

**4.** Orta məktəbdə keçilən tarix fənni kursu, cəmiyyətin inkişaf tarixinin qanunauyğunluğunu, şagirdlərin aydın olan formada elmi qaydada başa düşmələrinə kömək etməli, şagirdlərin kapitalizmin hökmən məhv olacağına və kommunizmin hökmən qələbə çalacağına, maddi və mənəvi nemətlərin həqiqi yaradıcısı olan xalq kütlələrinin rolunu və tarixdə şəxsiyyətin rolunu ardıcıl surətdə açıb göstərməlidir.

1 iyul 1959-cu ildə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun ADPİ-ya birləşdirildi.Bu birləşmədən sonra Tarix fakültəsinin dekanı prof.C.S.Quliyev oldu.Yeni dekanın fəaliyyəti fakültəyə yeni abı-hava gətirdi, professor-müəllim heyətinin, tələbə kontingentinin işə ciddi yanaşmasında, kafedralarda Elmi-tədqiqat işlərinin sürətlənməsində canlanmalar özünü göstərməyə başladı.

9 may 1963-cü ildə Azərbaycan SSR KP MK və Respublika Nazirlər Soveti “Ali və orta ixtisas təhsilinin daha da inkişaf etdirilməsi, mütəxəssis hazırlığının təkmilləşdirilməsi və istifadəsinə dair tədbirlər haqqında”, Qərar qəbul etdi. Qərara əsasən ADPİ-nin tələbələrinin ali təhsil alma müddəti 5 ildən 4 ilə endirildi. Paralel olaraq 11 iyun 1963-cü ildə isə qarşıya qoyulan məqsədə müvafiq olaraq institut 1964-1965-ci tədris ilindən başlayaraq mütəxəssisləri yalnız bir ixtisas üzrə hazırlamalıydı. Nəticədə, Tarix-filoloji iki müstəqil fakültəyə bölündü və **Tarix fakültəsi müstəqil fəaliyyətə başladı.**

1970-1971-ci tədris ilində ADPİ-nin **Hazırlıq şöbəsi** mövcud 4 ixtisas üzrə statistik göstəricilərin yüksək olduğunu görüb, Tarix ixtisas üzrə də dinləyicilər qəbul etməyə başladı.Eyni zamanda 1943-cü ildə yaradılmış və 1948-ci ildə bağlanmış **Azərbaycan tarixi kafedrası** yenidən fəaliyyətini bərpa etdi. 1972-1973-cü tədris ilində isə **Tarixin tədrisi metodikası** (müdiri prof.N.A.Paşayev) kafedrası yaradıldı. Yeni metodika kafedrasının yaradılması tarix müəllimlərinin peşə bacarıqlarının yüksəldilməsinə və təkmilləşdirilməsinə münbit şərait yaratmış oldu. Bu uğurlara baxmayaraq Tarix müəllimi ixtisası üzrə tələbələrin sayı əyani şöbədə 793, qiyabi şöbədə isə 486 nəfər olmaqla, İnstitut üzrə 11 ixtisas arasında 10-cu yerdə bərqərar olmuşdu.

Tarix fakültəsinin müstəqilliyi dövründə öz fəaliyyətinə, Elmi-tədqiqat işlərinin müasirliyinə və dəyərinə, alimlərin sıralarının artmasına görə SSRİ tarixi kafedrası (müdiri prof.İ.M.Həsənov) aparıcı kafedraya çevrildi. 1960-cı ilin əvvəllərində əgər kafedrada yalnız bir dosent fəaliyyət göstərirdisə, 1975-ci ilin əvvəlində 5 elmlər doktoru, professor, 6 elmlər namizədi (fəlsəfə doktoru), dosent elmi fəaliyyətini davam etdirirdi. Bu illərdə əgər institutun daha aktiv fəaliyyət göstərən 4 kafedrası vardısa, onlardan **SSRİ tarixi və Fəlsəfə kafedraları I və II yerləri** bölüşürdü. Elmi-tədqiqat işlərində əsas yeri tədris-metodiki işlər tuturdu. Xüsusilə də, tələbə gənclərin şəxsiyyət kimi formalaşmasında, tarix üzrə müasir tələblərə cavab verəcək bilik və bacarıqlara malik ixtisaslı kadr hazırlığında qabaqcıl tarixçilərdən Azərbaycan SSR Elmlər Akademiyasının akademik İ.A.Hüseynov, müxbir üzvi Z.İ.İbrahimov ön sıralarda idi. Hər iki alimin tələbkarlığı sayəsində tarixçi elmi kadrların yetişməsi günbəgün artmaqda davam edirdi. Əgər Azərbaycanda 150-dən çox doktorluq dissertasiyası müdafiə edən vardısa, onların əksəriyyəti Tarix fakültəsinin payına düşürdü.

Tarixçilərin Elmi-tədqiqatları tarixin müxtəlif və geniş sahələri əhatə edirdi. Həm keçmiş, həm müasir tarixi hadisələrin tədqiqi Moskva alimlərinin və digər xarici ölkələrdəki ixtisas sahiblərinin diqqətini cəlb edirdi. Xüsusilə də, Qədim Şərq tarixi və Azərbaycan tarixinə aid elmi əsərlər alimlərin maraq dairəsində idi. 1960-cı ildə Moskvada tarix alimlərinin Beynəlxalq Konfransında şərqşünas tarixçi kimi tanınmış, 1968-ci ildə tarix üzrə elmlər doktoru,

prof.Y.B.Yusifovun Yaxın-Şərqdə iqtisadi-sosial, siyasi və mədəni cəhətdən əsas rol oynamış Elam dövlətinin tarixinə həsr edilmiş və Moskvada nəşr edilmiş Monoqrafiyası böyük əks-səda doğurmuşdu. 1969-cu ildə Berlində və 1970-ci ildə isə Leninqrada Elmi Konfranslara dəvət olunmuşdu. Elmi əsərləri yüksək qiymətləndirilmiş və əsərləri alman və macar dillərinə tərcümə edilərək, Berlin və Macarıstan Elmlər Akademiyasının nəşrlərində çap edilmişdir. Prof.C.M.İbrahimovun, dos.A.Y.Süleymanovun, prof.İ.M.Qasımovun, dos.Y.Y.Ələsgərovun, dos..D.X.Hüseynovun, Azərbaycan tarixinə həsr edilmiş və yüksək dəyərə malik elmi əsərləri diyarşünaslıq baxımından olduqca dəyərli əsərlər sırasına daxil olmuşdur və hökumət tərəfindən də yüksək qiymətləndirilirdi. Azərbaycan tədqiqatçılarından C.X.Hüseynovun I Dünya müharibəsi ərəfəsinə həsr edilmiş elmi işi uğurlu olması ilə yanaşı, **"Qatır Məmməd-xalq qəhrəmanı" kitabçası** nəinki alimlər, eyni zamanda Azərbaycan əhalisi arasında populyarlığı ilə seçilirdi.

**SSRİ tarixi kafedrası** daima öz liderliyini tarixin müxtəlif illərində, müxtəlif problem və məsələlərinə, sovet dövrünün sosializm inkişafının geniş diapozonda araşdırılmasına həsr edilmiş tədqiqatları əvəzsiz tarixi əsərlər sayılırdı. Müxtəlif illərdə bu kafedraya dos.M.Y.Vəkilov, S.S.İbrahimov, prof.Z.B.Şıxlinski, prof. S.R.Aslanov və s. alimlər rəhbərlik etmişdi. Onların rəhbərliyi altında dos. N.İ.Əlizadə, Q.S.Əzimova, S.T.Əmiraslanova, dos.X.S.Köçərli, A.A.Əliyev, S.S.İbrahimov, A.Ş.Şahmirov, O.M.Osmanlı, N.A.Saniyev, M.M.Hacıyev müxtəlif illərdə Azərbaycan tarixinə həsr edilmiş bir-birindən dəyərli dissertasiyalar yazmışdılar. Azərbaycanın Oktyabr inqilabı dövründəki tarixi məsələlərinə həsr edilmiş Elmi-tədqiqat işləri prof.Q.A.Mədətovun və dos.S.V.Heydərovun gərgin əməyi sayəsində işıq üzü gördü. Zaqafqaziya Müttəfiq Respublikalarının tarixinə aid məsələrlərin tədqiq edilməsində və müxtəlif sahələri əhatə edən elmi əsərlərin yazılmasında prof.Ş.A.Sadıqovun böyük xidmətləri olmuşdu. Dos. M.N.Şıx-lının, dos.Q.K.Qasımzadənin və dos. İ.Q.Bağırovun Sovet hökumətinin beynəlxalq əlaqələrinin tarixinə həsr etdikləri elmi tədqiqatlar müxtəlif illərdə aktuallağı ilə seçilirdi.

Tarix fakültəsinin alimləri tarix elminə aid araşdırmalarla paralel olaraq, tarixin tədrisi metodikası sahəsində də geniş Elmi-Tədqiqat işləri aparmaqla yanaşı, əsərlərin çap olunaraq müəllim və tələbələrə çatdırılmasını təmin edirdilər. Onların metodiki əsərlərindən orta məktəbin tarix müəllimləri də bəhrələnirdilər. **Tarixin tədrisi metodikası kafedrasının** əməkdaşları tarix müəllimlərinin peşə hazırlığının yüksəldilməsi sahəsində müəllim və tələbələrin istifadə edəcəkləri elmi-metodiki əsərlərinin yazılıb, çap edilməsində əvəzsiz xidmət göstərmişdilər. Elmi-metodiki işlərə həsr edilmiş Elmi-tədqiqat işlərinin aparılması sayəsində dos.N.A.Paşayevin 1961-ci ildə yazdığı "Tarix üzrə tədris ekskursiyası", 1965-ci ildə "IV sinifdə tarix dərslərində diyarşünaslıq materiallarından istifadə", 1967-ci ildə "Məktəbdə tarixi-diyarşünaslıq işi", 1972-ci ildə "Tarixin tədrisi metodikası" kitabları metodika sahəsində olduqca dəyərli əsərlər hesab olunurdu.

Sonrakı illərdə Tarix fakültəsinin kafedralarının sayı artırıldı:

1. Azərbaycan tarixi kafedrası;
2. Türk və Şərqi Avropa xalqları tarixi kafedrası;
3. Ümumi tarix kafedrası;
4. Siyasi tarix kafedrası;
5. Siyasi iqtisad kafedrası;
6. Sosiologiya və politologiya kafedrası;
7. Fəlsəfə kafedrası;
8. Ümumi pedaqogika kafedrası.

Müstəqillik illərində fakültənin strukturunda və kafedraların birləşməsi nəticəsində adlarında dəyişikliklər edildi. Bu dəyişiklik əslində respublikada gedən ictimayi-siyasi hadisələrlə bağlı idi:

1.Azərbaycan tarixi kafedrası (müdir prof. S.A.Məmmədov);

2.Türk və Şərqi Avropa xalqları və tarixin metodikası tarixi kafedrası (müdiri dos.R.Ə.Əliyev);

3.Ümumi tarix kafedrası (müdiri AMEA-nın müxbir üzvü, prof.V.H.Əliyev);

4. Ümumi pedaqogika kafedrası (müdiri akademik H.M.Əhmədov);

5. Fəlsəfə kafedrası (müdiri prof.M.A.Balayev);

6. İqtisadi və sosial fənlər kafedrası (müdiri prof. Ə.A.Allahverdiyev).

Fakültəyə müxtəlif illərdə prof.H.Qasımzadə (1968-1974), prof.Ə.Ş.Şahmirov (1974-1980), prof.Y.B.Yusifov (1981), prof. D.N.Qüdrətov (1981-1995), dos.R.İ.Əliyev (1995-2006), prof.O.B.Sultanov (2007-2016) rəhbərlik etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə fakültə əməkdaşları fəxri ad, orden və medallarla təltif edilmişlər:

1. AMEA-nın müxbir üzvü, prof.Vəli Əliyev - əməkdar müəllim (2012)
2. prof.Süleyman Məmmədov- əməkdar elm xadimi (2012)
3. prof.Dərgah Qüdrətov - Əməkdar müəllim (2006)
4. prof.Oqtay Sultanov –“Tərəqqi” medalı (2006)
5. prof.Əmrulla Paşayev- Əməkdar müəllim (2012)
6. prof.Məhəmməd Balayev -əməkdar müəllim (2012)
7. dos.Rəhim Əliyev-əməkdar müəllim (2012)
8. dos.Yasin Qaraməmmədli-əməkdar jurnalist (2012), 3-cü dərəcəli “Vətənə xidmətə görə orden (2016)

Tarix fakültəsinin professor-müəllim heyəti və tələbələri institutun yarandığı dövrdən bu günə qədər daima Azərbaycan Reaspublikasının ictimai-siyasi həyatında da öz fəaliyyətləri ilə qabaqcıl sıralarda yer almışdır.

## COĞRAFİYA FAKÜLTƏSİNİN BİR ƏSRLİK TARİXİ

***“Müəllim adı dünyada ən yüksək addır. Mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki, hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir. Mən müəllim qarşısında baş əyirəm”.***

***Heydər Əliyev***

Azərbaycan Dövlət Pedaqoji İnstitutu Xalq Maarif Komissarlığı tərəfindən təsdiq edilmiş rəhbərliyinin tərkibində coğrafiya müəllimi **Qafur Rəşad Mirzəzadə** (məktəb müəllimi) də var idi. Q.R.Mirzəzadənin institutun rəhbərləri sırasına qatılmasının əsas səbəbi onun 1910-1921-ci illərdə ana dilində yazıb çap etdirdiyi bir sıra coğrafiya kitabları (Qafqaz coğrafiyası-1910, Coğrafiya-1920, Təfsirli xalq lüğəti-1921 və s.) əsas rol oynamışdı. 1924-1932-cı illərdə Q.R.Mirzəzadə 9 adda coğrafiya kitabı və B.Əsgərovla birlikdə yazmış olduğu iş kitabı (müəllimlər üçün metodik vəsait) müəllim və şagirdlər üçün ən qiymətli elmi ədəbiyyat olmuşdu.

Əgər mədrəsələrdə Qurandan dərs deyən din xadimlərinin kainatın yaradılmasına aid verdikləri biliklər nəzərə alınmasa, Azərbaycandakı məktəblərdə coğrafiya fənni üzrə ixtisaslı kadrlar, ali təhsilli müəllimlər yox idi. Yaradılmış ADPİ-u ilk dəfə olaraq ali təhsilli coğrafiya müəllimi hazırlamağa başladı. Əslində institutun özündə də coğrafiyadan dərs deyəcək müəllimlər yox idi. Bu səbəbdən də orta məktəbin müəllimi Q.R.Mirzəzadə institut əməkdaşlığına cəlb edildi.

1921-ci il N.Nərimanovun 66 №-li dekterinə əsasən yaradılmış Ali Pedaqoji İnstitutunun 3 şöbəsindən biri-**Təbiyyət-Coğrafiya** olmuşdu. Lakin bu şöbədə coğrafiya fənlərini tədris etmək üçün ixtisaslı kadrlar olmadığından, rəhbərlik digər müttəfiq respublikalardan müəllimlər dəvət etmək qərarına gəldilər. Gürcüstandan akademik A.N.Cavaxişvili, A.F.Lyaster ("Fiziki coğrafiya kursu" və "Zaqafqaziyanın fiziki coğrafiyası" kitablarının müəllifi), Ermənistandan prof.Q.A.Koçəryan (erməni şöbəsində dərs demək üçün), Böyük Ağrıdağını tədqiq edən Q.L.Xalfen (institut tələbələri üçün rus-azərbaycan coğrafiya lüğətini tərtib etdi), sonralar prof.M.M.Əliyev, müəllim M.Q.Bənənyarlı, Q.İ.Əliyev, R.A.Kasparyan, B.N.Mixels və s.kimi coğrafiyaşünaslar dəvət edildilər.

29 sentyabr 1931-ci ildə ADPİ-nin Təbiyyat fakültəsinin tərkibində fəaliyyət göstərən Coğrafiya şöbəsinin aşağıdakı kafedraları yaradıldı:

**1.** İqtisadi coğrafiya-kafedra müdiri dosent M.Q.Cuvarlinski;

**2.** Minerologiya və geologiya-kafedra müdiri professor A.Z.Vəzirzadə.

Coğrafiya üzrə ixtisaslı kadrların-coğrafiyaşünasların hazırlanması üçün SSRİ Xalq Komissarları Sovetinin və SSRİ Mərkəzi Komitəsinin 15 may 1934-cü ildə "İbtidai və orta məktəblərdə coğrafiyasının tədrisi haqqında" Qərarı qəbul edildi. Qərada deyilirdi:

-SSRİ Xalq Komissarları Soveti və SSRİ Mərkəzi Komitəsi müəyyən etdi ki, ibtidai və orta məktəblərdə coğrafiyanın tədrisində əhəmiyyətli dərəcədə çatışmazlıqlar mövcuddur, bunların ən böyüyü verilmiş mətnlərin mücərrədliyi və quru olmasıdır, fiziki-coğrafi materialda çatışmazlıqlar var, xəritə üzrə istiqamətləndirmə zəifdir, coğrafiya dərslikləri iqtisadi-statistik materiallarla, sxemlərşdirmələrlə yükləndirilib, nəticədə müntəzəm olaraq şagirdlər məktəbdən çıxır, elementar coğrafi biliklərə malik deyillər.

Bu çatışmazlıqları aradan qaldırmaq üçün SSRİ Xalq Komissarları Soveti və SSRİ Mərkəzi Komitəsi İttifaq Respublikalarının Xalq Komissarlarının aşağıdakı müddəaları əlində rəhbər tutaraq coğrafiya fənni üzrə proqram və dərsliklərə yenidən baxılmasını zəruri hesab edir:

**1.**İbtidai siniflərdə (III və IV siniflərdə) coğrafiyanı tədris edərkən, şagirdlərin yaddaşında proqram tərəfindən müəyyən edilmiş əsas coğrafi adları (ölkələri, çayları, dağları, dənizləri, şəhərləri və s.) möhkəmləndirmək və coğrafi xəritə haqqında bilikləri möhkəmləndirmək, daha çox əyaniliyə və onun əlçatanlığına, müasirləşməsinə, əyləncəli təqdimatlara nail olmaq.

**2.**Orta məktəblərdə coğrafiyanın tədrisində aşağıdakı dəyişiklikləri etmək:

a) V sinif proqramını fiziki coğrafiya ilə məhdudlaşdırmaq, proqramın müəyyən edilmiş həcmini qorumaq, lakin məzmunu V sinif şagirdlərinin yaş səviyyəsinə uyğunlaşdırmaqla sadələşdirmək;

b) VI sinif proqarmında dünyanın qitələrinin fiziki-coğrafi icmalına yönəlməklə (Avropa, Asiya, Amerika, Afrika, Avstraliya), əsas dövlətlər haqqında informasiyaları daxil etməklə (siyasi quruluşu, xalq təsərrüfatı və s.) tədris materialının ixtisar edilməsi və sinif şagirdlərinin yaş səviyyəsinə uyğunlaşdırmaq;

v) VII sinifin tədris proqramında SSRİ-nin fiziki-coğrafi icmalını saxlamaq, əhəmiyyətli dərəcədə həcmini genişləndirmək, həmçinin SSRİ respublikalarının, diyar və vilayətlərinin ümumi icmalının tədris materialından iqtisadi statistik informasiyaları sadələşdirmək, eyni zamanda, paralel olaraq hər bir respublika, diyar və vilayətlərin coğrafi xarakteristikasının icmalını

genişləndirmək (çayların, göllərin, dənizlərin, iqlimin, flora və faunanın təsviri, ən böyük şəhərlərin əhalisinin xarakteristikası, dəmir yolları və şosse yolları və s.).

q) VIII sinif proqramında SSRİ-nin iqtisadi coğrafiyasını belə tədris etmək lazımdır, əvvəlcə, SSRİ istehsal qüvvələrinin yeri və xalq təsərrüfatının vəziyyəti, ardınca isə hər bir rayonun iqtisadi-coğrafi xarakteristikası.

d) IX sinif proqramına kapitalist ölkələrinin iqtisadi coğrafiyasını gətirmək.

**3.**1935-ci ilin iyun ayına qədər coğrafiya fənni üzrə yeni dərsliklər hazırlansın, bunun üçün aşağıdakı müəlliflər təsdiq edilsin:

a) P.Q.Terexov və V.Q.Erdeli-ibtidai məktəbin III və IV sinifləri üçün İbtidai coğrafiya dərsliyi (2 hissədə);

b) Prof.A.C.Barkov və prof.A.A.Polovinkin-V sinif üçün Fiziki coğrafiya dərsliyi;

v) S.L.Varjanski-VI sinif üçün Materiklər coğrafiyası və əsas ölkələr (SSRİ olmadan);

q) Prof.N.N.Baranski-VII sinif üçün SSRİ-nin fiziki coğrafiyası;

d) Prof.N.N.Baranski-VIII sinif üçün SSRİ-nin iqtisadi coğrafiyası;

e) İ.A.Vitver-IX sinif üçün Kapitalist ölkələrinin iqtisadi coğrafiyası.

**4.**RSFSR Xalq Maarif Komissarlığına və Birləşmiş kitab-jurnal dövlət nəşriyyatına-OQİZ-ə (Обьединение Государственных Книжно-Журнальных Издательств-Dövlət Kitab-Jurnal Nəşriyyatları Birliyi) tapşırlısın ki, coğrafiya müəllimləri üçün coğrafi antologiya, coğrafiyanın tədrisi metodikası, coğrafiya kitab və jurnallarının biblioqrafik göstəricilərini nəşr etməyi təklif etsin.

**5.**Müttəfiq Respublikaların Mərkəzi Komitələrinə təklif edilsin ki, 1934-cü ildən başlayaraq şagirdlər üçün coğrafiya üzrə əyləncəli oxu kitabları seriyası (görkəmli səyyahların tərcümeyi-halı, müxtəlif ölkələrin və xalqların həyatı haqqında hekayələr, ən vacib səyahətlərin təsvirini və s.)nəşr etmək təklif edilsin.

**6.**Xalq Maarif Komissarlığının tələbi ilə Dövlət Kitab-Jurnal Nəşriyyatları Birliyi və Kartoqrafik fabrik coğrafiya xəritələrinin, atlaslarının, şəkillərinin, cədvəllərinin və coğrafiya üzrə digər dərslik vəsaitlərinin çap olunmasını təmin etsin.

**SSRİ Xalq Komissarları Sovetinin sədri: V.Molotov.**
**SSRİ Mərkəzi Komitəsinin katibi: İ.V.Stalin.**

**15 may 1934.**

Tezliklə N.A.Maksimovun, G.İ.İvanovun mövcud olan və məktəblərdə istifadə edilən dərslikləri qərarda göstərilmiş müəlliflərin dərslikləri ilə əvəz olundu. Qərara uyğun olaraq coğrafiyadan yeni dərsliklər yazıldı və Azərbaycan məktəblərində bu dərsliklərdən istifadə etmək üçün Azərbaycan Maarif Nazirliyinin nəzdində yaradılmış "Tərcümə" bölməsində dərsliklər (türk) azərbaycan dilinə tərcümə edilərək Azərnəşr tərəfindən çap edildi. Respublikanın bütün (demək olar ki, bütün SSRİ məkanında) məktəblərində eyni məzmunlu dərsliklərdən istifadə edilməyə başlandı.

1939-cu ildə Coğrafiya şöbəsinin tələbələrinin sayı 141 nəfərə çatmışdı, halbuki 1937-1938 tədris ilində 52 nəfər idi. 1939-1940-cı illərdə coğrafiyaçı alimlərin də sayının artması aydın nəzərə çarpırdı.A.Z.Vəzirzadə, A.Q.Əsgərov (Geologiya-minerologiya kafedrası), Q.B.Əliyev və M.K.Hacıyev (Coğrafiya kafedrası) kimi tədqiqatçılar alimlərin sırasına qatıldılar.

**1 oktyabr 1943**-cü ildə ADU-nun tərkibindən ayrılaraq müstəqillik qazanmış ADPİ-nin fakültələri sırasında **Təbiət elmləri fakültəsi** fəaliyyət göstərməyə başladı (dekan dos.M.A.Qasımov idi) və 6 kafedrasından yalnız biri coğrafiya elminə aid idi (**Geologiya** kafedrasının müdiri dos.M.A.Hacınski). Müstəqil fəaliyyətə başlamış ADPİ-nin bütün ixtisasları

üzrə olduğu kimi, coğrafiyaya aid olan təlim vasitələri, avadanlıqlar, cihazlar, elmi-metodiki ədəbiyyatlar da olduqca böyük itkilərlə üzləşmişdi. Tədris xəritələri, şəkillər, sxemlər, cihaz və avadanlıqlar, herbarilər, kolleksiyalar, modellər, maketlər və s. qiymətli vəsaitlərin çoxu ADU-ya birləşmələr, ayrılmalar zamanı itib-batmışdı və ya istifadəyə yararsız hala düşmüşdü. Təlim vasitələrinin çatışmaması mövzuların tədrisi keyfiyyətinin aşağı düşməsi ilə yanaşı, coğrafi bilik və bacarıqların mənimsənilməsində, əyaniliyin təmin edilməsində əngəllər törədirdi.

1943-1944-cü tədris ilində "İbtidai və orta məktəblərdə coğrafiyanın tədrisi haqqında" Qərara əsasən respublikanın məktəblərində istifadə edilən **Tədris planında** fənnin dərs saatlarında nəzərə çarpacaq dərəcədə artım müşahidə edilməyə başlandı. Paralel olaraq ADPİ-nun da strukturunda bəzi yeniliklər yaradıldı. Belə ki, müasir tələblərə uyğun bilik və bacarıqlara malik coğrafiyaşünas kadrların yetişməsi üçün **Coğrafiya şöbəsi** və **Ümumi coğrafiya kafedrası yaradıldı.** Kafedranın müdiri prof.A.N.Cavaxişvili təyin edildi. Coğrafiya şöbəsində təlim-tərbiyə, kafedra əməkdaşlarının fəaliyyəti kökündən dəyişmiş oldu. Fakültənin professor-müəllim heyətinin tərkibi də artmışdı.Kafedralarda 1 dosent, 9 baş müəllim, 3 assistent, 1 müəllim fəaliyyət göstərirdi.

1949-1950-ci tədris ilində Coğrafiya şöbəsində kafedraların sayı artaraq üçə çatmışdı. Coğrafiya elmi üzrə İqtisadi coğrafiya, Fiziki coğrafiya və Geologiya-minerologiya kafedralarında çalışan 10 pedaqoqdan 2-si elmlər doktoru, 5-i isə elmlər namizədi (fəlsəfə doktoru) idi. 1954-1955-ci tədris ilində İqtisadi coğrafiya üzrə O.U.Osmanov və İ.Osmanov dissertasiyalarını müdafiə edərək elmlər namizəd elmi dərəcəsinə layiq görüldülər. Ləng də olsa, coğrafiya elmi üzrə alimlər yetişməkdə idi.

1950-ci ildə institutun direktoru prof.S.Hacıyev təyin edildi. Coğrafiya fakültəsinin dekanı isə S.Ş.Şükürov oldu. Fakültənin tərkibində cəmi 3 kafedra fəaliyyət göstərirdi. İqtisadi coğrafiya, fiziki coğrafiya və geologiya-mineralogiya kafedraları.

**İqtisadi coğrafiya** kafedrasının müdiri M.A.Axundov idi.Əməkdaşları baş müəllimlər O.U.Osmanov və H.A.Sadıxlı.

**Fiziki coğrafiya** kafedrasının müdiri M.İ.İbrahimbəyli idi. Əməkdaşları dos.R.A.Kasparyan, baş müəllim C.S.Şükürov, assistent M.A.Zülfüqarov(assistent-köməkçi deməkdir. Kafedralarda elmi vəzifə kimi mövcud olunmuşdur. Assistent ali təhsilli müəllim olmalı idi. Seminar və laborator dərslərini aparırdı, zaçot və imtahanların keçirilməsində mühazirə müəlliminə kömək edirdi. Professor və dosentlər çatışmayan vaxtlarda mühazirə dərslərini aparırdı. Assistent olmaq üçün müəllimin 1 il stajı olmalı idi, elmlər namizədinə staj tələb olunmurdu).

**Geologiya-mineralogiya** kafedrasının müdiri M.D.Zahiri idi. Əməkdaşları baş müəllim M.N.Rəcəbov və assistent T.A.Bəylərova idi.

**16 avqust 1950-ci il 246 №-li Əmrdə** Coğrafiya fakultəsinin nöqsanları öz əksini tapmış oldu. Növbəti tədris ilində bu nöqsanların aradan qaldırılması üçün fakültə rəhbərliyinə ciddi göstərişlər verildi. Elə nöqsanlar vardı ki, onu fakültə səviyyəsində aradan qaldırmaq mümkün deyildi.

Verilmiş Əmr və göstərişlərə əsasən görülən tədbirlərin nəticələrini müəyyənləşdirmək üçün **15 noyabr 1950-ci ildə** institut rəhbərliyi tərəfində təyin edilmiş komissiya bütün fakültələrdə olduğu kimi coğrafiya fakültəsində də yoxlama keçirdi və yoxlamanın nəticələri **342 №-li Əmrin** bəndlərində öz əksini tapmış oldu:

**1.** Coğrafiya fakültəsində bəzi müəllimlərin mühazirəsi elmi-nəzəri cəhətdən praktik məşğələni xatırladır. Mühazirələrin elmi səviyyəsi aşağıdır. Tələbələrin müxtəlif miqyaslı və müxtəlif məzmunlu xəritələrlə işləməsi çətinləşir.

**2.** Tələbələr eyni dərslikdən istifadə etmir (Suslov, Dobrinin, Berq və s). Tələbələrin müstəqil işlərinə rəhbərlik zəifdir. Müstəqil işlərin təşkili və yoxlanılması formal xarakter daşıyır. Laborantların iş planı yoxdur. Bəzi iş planlarına-praktik işlərə yaradıcı yanaşılmır. Kafedralarda tematik xəritələr, illustirativ vəsaitlər, kontur xəritələr, meteroloji cihazlar yoxdur.

**3.** Yay təcrübəsinə tələbələr əvvəlcədən hazırlıq keçmir. Hər bir tələbənin və təcrübə rəhbərinin iş planı olmalıdır. Fakültədə coğrafiya dərnəyi yaradılmayıb.

Əmrin sonunda fakültə rəhbərliyindən tələb olunurdu:

**1.** Bütün müəllimlər mühazirələrinin mətnlərinin elmi-nəzəri səviyyəsini yüksəltsinlər. Fakültənin bütün kafedralarında və Elmi Şurasının iclaslarında praktik işlərə xüsusi diqqət ayırmağı ön plana çəksinlər. Seminar və laborator məşğələ dərslərinin keyfiyyətinin səviyyəsini yüksəltsinlər. Müntəzəm olaraq tələbələrin elmi ədəbiyyat üzərindəki müstəqil işlərinə ciddi nəzarət edərək, işin keyfiyyətini yüksəltsinlər.

**2.** Coğrafiya və geologiya dərnəkləri yaratmaq və bu dərnəklərdə tələbələrin elmi hesabatlarının dinlənilməsini təşkil etmək, kursdan-kursa keçdikcə, elmi səviyyəni genişləndirməklə yanaşı, dərinləşdirmək. Müntəzəm olaraq ekskursiyalar təşkil etmək. Müstəqil iş kabinetlərini təcili olaraq avadanlıqlarla təmin etmək.

**3.** İnstitutun Təsərüfat işləri üzrə direktor müavini F.Y.Qoldberqə tapşırılsın ki, institutun həyətində tələbələrin atmosfer hadisələri üzərində **müşahidə** aparmalarını təşkil etmək üçün sahə ayırsın. Kafedranın verdiyi siyahı üzrə avadanlıqların gətirilib həmin sahədə quraşdırılmasını təmin etsin.

**4.** Topoqrafiyadan praktik işlərin yerinə yetirilməsi üçün lazım olan çertyoj kağızlarının (çertyoj kağızı, tuş, millimetrovka, ruletka, üçayaq, tamasa və s.) və avadanlıqların gətirilməsini və kafedranın təmin olunmasını təşkil etsin.

**5.** Fakültə dekanına və kafedra müdirinə tapşırılsın ki, fakültənin III mərtəbəsində **Coğrafiya və diyarşünaslıq muzeyi** təşkil etsinlər. Koridorun tərtibatına lazım olan bütün materialları və avadanlıqları İnstitutun Təsərüfat işləri üzrə direktor müavini F.Y.Qoldberq təmin etsin. (BPNO direktor ADPİ Ağayev).

**18 dekabr 1950-ci ildəki 380 №-li Əmrdə** qış imtahan sesiyasının nəticələri xüsusi olaraq qeyd edilmişdir: - "Coğrafiya fakültəsində kafedralar üzrə tələbələrin müstəqil işlərinin müntəzəm və sistemli şəkildə rəhbərlik eləmədiklərindən, 58 tələbədən 38-i imtahandan qeyri-kafi qiymət alıb. Bütün kafedralara tapşırılsın ki, tədris planının bütün kurslar üzrə həyata keçirilməsini təcili təmin etsinlər. Nöqsanları aradan qaldırmaq üçün əlavə məşğələlər təşkil etsinlər".

Verilmiş əmrlərin məzmunundan aydın olur ki, institut rəhbərliyi daima fakültələrdə tədris-tərbiyə işlərini müntəzən diqqət mərkəzində saxlamış və nəticələrin yoxlanması üçün komissiyalar yaratmışdı. Fakültələrdə müəyyən edilmiş nöqsanları operativ olaraq aradan qaldırmaq üçün isə operativ, əməli tədbirlər görülmüşdür. Bu tədbirlər institutun inkişafına, dövrünün tələblərinə uyğunlaşmasına və aparıcı təhsil ocağına çevrilməsinə xidmət etmişdi.

1955-1956-cı tədris ilində ADPİ 5 illik təhsilə keçdi və institutun tərkibində fəaliyyət göstərən Təbiət-Coğrafiya fakültəsində 3 ixtisas üzrə ixtisaslı kadr hazırlanmağa başlandı: Təbiət-kimya, Coğrafiya-biologiya, Kənd təsərrüfatı ixtisasları. İxtisasların qoşalaşması respublikada kadr çatışmazlığının aradan qaldırılmasına istiqamətlənmişdi.

**28 yanvar 1955-ci il 19 №-li Əmrdə** Coğrafiya fakültəsinin fəaliyyət göstərən aşağıdakı 3 kafedrası üzrə yeni müdirlər təyin edildi:

**1.**Fiziki coğrafiya-müdiri dos.S.Ş.Şükürov

**2.**İqtisadi coğrafiya-müdiri dos. M.A.Axundov

**3.**Geologiya və mineralogiya-müdiri dos.R.Q.Sultanov

Kafedraların adından göründüyü kimi Coğrafiyanın tədrisi metodikası tamamilə arxa plana atılmışdır. Yalnız nəzəri elmlərin hakim olduğu kafedralarda metodika olmadan əsaslı, mükəmməl təhsilə malik, hərtərəfli bacarığa yiyələnmiş peşəkar müəllim yetişdirmək mümkün deyildir. Müəllim nə qədər nəzəriyyəni mükəmməl bilmiş olsa da, onun tədrisi metodikasını bilməsə, təhsildə, coğrafi bilik və bacarığı mənimsəmədə uğur əldə edə bilməz. Coğrafiyanın tədrisi metodikasının görünməməsinin səbəbi bəlkə də həmin dövrlərdə Azərbaycanda bu sahədə elmi tədqiatların aparılmamasından qaynaqlanırdı.

ADPİ-nin fiziki-iqtisadi elmi coğrafiya sahəsi ildən-ilə yüksək səviyyədə və sürətlə, diyarşünaslıq prinsiplərinə əməl etməklə inkişaf edirdi. Lakin nədənsə coğrafiyanın tədrisi metodikası elmi-coğrafiya ilə paralel inkişaf edə bilmirdi, demək olar ki, bu sahədə ləngimələr nəzərə çarpırdı. **1955-ci ildə M.A.Zülfüqarov Azərbaycanda ilk dəfə** olaraq coğrafiyanın tədrisi metodikası sahəsində "Azərbaycan SSR coğrafiyası tədrisinin metodikası (orta məktəbin VII sinfində)" mövzusunda namizədlik dissertasiyasını yazdı və uğurla müdafiə etdi. Elmi rəhbəri c.e.n.dos.O.Osmanov ixtisasca metodist olmasa da, çox savadlı və bacarıqlı elmi rəhbər kimi tanınırdı. M.A.Zülfüqarovun elmi-tədqiqat sahəsi Azərbaycanın orta məktəbləri, coğrafiya müəllimlərinin dərs prosesi oldu. Yüzlərlə məktəblərin müəllim və şagirdləri ilə müsahibə apardı, coğrafiya dərslərini dinlədi, elmi-metodiki baxımdan problemləri araşdırdı və səmərəli metodlar işləyib hazırladı. M.A.Zülfüqarov Azərbaycanda coğrafiyanın tədrisi metodikası sahəsində Elmi tədqiqatın təməlini qoymuş ilk metodist kimi metodika elminin tarixinə düşdü. Onun ardınca 1959-cu ildə dos.H.A.Sadıxlı "Azərbaycan SSR-in orta məktəblərində Azərbaycan coğrafiyasının tədrisində əyanilik" (elmi rəhbəri c.e.d.prof. Qasım Gül), 1963-cü ildə N.N.Allahverdiyev "Coğrafiyadan tədris ekskursiyalarının təşkili və keçirilməsi metodikası" (Azərbaycan SSR ümumtəhsil məktəblərinin V-VII siniflərinin materialları üzrə, elmi rəhbəri c.e.n.dos.M.Ə.Axundov) və 1976-cı ildə isə dos.D.M.Ələsgərov "Ölkəşünaslıq kurslarında kartoq-rafik bilik və bacarıqların formalaşdırılmasının metodikası" mövzusundametodikaya aid namizədlik dissertasiyaları yazdılar. Elmi rəhbərlərin coğrafiyanın nəzəriyyəsi sahəsi üzrə ixtisaslı alim olmalarına baxmayaraq, onların rəhbərliy altında Azərbaycanın Coğrafiyanın tədrisi metodikası sahəsində Elmi-tədqiqatlar aparıldı və uğurlu dissertasiyalar yazıldı. Artıq Azərbaycanın-ADPİ-nin alim elmi adı daşıyan ixtisaslı coğrafiya sahəsində metodistləri vardı. Bu coğrafiyanın tədrisi metodikası sahəsinin elmi uğurları idi. N.N.Allahverdiyev Sovet məkanında ilk dəfə olaraq sübut etdi ki, coğrafi ekskursiya açıq məhəldə keçirilən dərs formasıdır. Həmin dövrdə coğrafiyanın tədrisi metodikası üzrə doktorluq dissertasiyası yazmış Rusiyanın görkəmli metodistləri N.N.Allahverdiyevin bu elmi-metodiki nəzəriyyəsini və praktik təcrübəsini qəbul etməklə yanaşı, olduqca yüksək qiymətləndirdilər, metodik tədqiqat işlərində onun dissertasiyasına istinadlar edilməyə başlandı. Bu Azərbaycanda coğrafiyanın tədrisi metodikası üzrə bir elmi-metodiki tapıntıya çevrildi. Metodist alimlərinin gərgin elmi fəaliyyəti sayəsində ka-fedra coğrafiyanın tədrisi metodikası sahəsində Elmi-tədqiqat işləri aparılması ilə yanaşı, eyni zamanda Azərbaycanda ümumittifaq miqyasında tanınan aparıcı, qabaqcıl **Elmi-metodiki mərkəz** kimi tanınmağa başladı. Bu mərkəzin ən böyük fəaliyyəti **Pedaqoji təcrübələrin** keçirilməsi prosesinə rəhbərlik etməsi idi. Pedaqoji təcrübələr yalnız Bakı şəhərində deyil, Azərbaycanın əksər rayonlarında keçirilirdi. Metodistlər rayon məktəblərinə ezam olunaraq, əyani və qiyabi təhsil alanların təlim prosesini izləyir, pedaqoji təcrübəni daima nəzarətdə saxlayır, lazım olan məqamda kömək edir, problemləri araşdırır, təlim prosesinin planlaşdırılmasını səmərəli axara yönəltmək üçün lazım olan üsul və vasitələri işləyib hazırlayırdılar.

İnstitut rəhbərliyi **27 may 1955-ci ildə 102 №-li Əmr** verdi. Belə ki, 12 may 1955-ci ildə SSRİ Ali Təhsil Nazirliyinin məktubuna əsasən SSRİ daxilində fəaliyyət göstərən institutların

bütün fakültələrində Tədris planlarında dəyişikliklərin edilməsi göstərilmişdir. Bu məktuba əsaslanaraq ADPİ-də də Tədris planlarında dəyişikliklər edildi, o cümlədən də, Coğrafiya fakültəsinin Tədris planında bir sıra fənlərin dərs saatları azaldıldı.

1 sentyabr 1955-ci il 170 №-li Əmrə əsasən Fiziki və İqtisadi coğrafiya kafedralarında cəmi 11 nəfər-6 dosent, 3 baş müəllim, 1 assistent və 1 müəllim fəaliyyət göstərirdi.

1956-1957-ci tədris ilində 33 kafedrası olan ADPİ-nin strukturunda ixtisarlar edilərək, kafedraların sayı 23-ə endirildi. O cümlədən, birləşmələr nəticəsində Coğrafiya şöbəsinin Fiziki və iqtisadi coğrafiya kafedrası yaradıldı (müdir dos.S.Ş.Şükürov oldu).

Coğrafiya ixtisasının məzunları müəllim işlədikləri bölgələrdə tədris etdikləri fənnin həyat üçün əhəmiyyətini uşaqlara öyrətdikcə, institutun bu sahə üzrə tələbə qəbulunda tədricən artım müşahidə edilirdi. Əgər 1951-ci ildə coğrafiya ixtisası üzrə məzunların sayı 44 nəfər idisə, 1959-cu ildə bu rəqəm 75 nəfərə çatmışdı. Xüsusilə də, çöl təcrübələrinin, müşahidələrin, təbiətə və təsərrüfat sahələrinə ekskursiyaların aparılması məktəblilərin marağına səbəb olurdu.

1960-cı ildə Coğrafiya fakültəsi yenidən Kimya fakültəsinin tərkibinə daxil edilmişdir və öz müstəqilliyini itirmişdir.

Uzun illərdən sonra nəhayət ki, 1966-cı ildə Biologiya fakültəsinin tərkibində müstəqil Coğrafiya şöbəsi fəaliyyət göstərməyə başlasa da, yalnız **1970-ci ildə Coğrafiya müstəqil fakültə** kimi biologiyanın tərkibindən ayrıldı və başqa binaya (Dağıstan küçəsinə) köçürüldü. Fakültənin dekanı dos.S.V.Məmmədov təyin edildi. Bakıxanovda yaradılmış Meteoroloji müşahidə sahəsinin bəzi (coğrafiya meydançası) cihazları yeni əraziyə köçürülsə də, təlim vasitələri otağında atılıb qaldı və tələbələr müstəqil müşahidə aparmaqdan məhrum oldular.

1969-1970-ci tədris ilində Ümumi coğrafiya bazası əsasında **Fiziki coğrafiya, İqtisadi coğrafiya və Coğrafiyanın tədrisi metodikası kafedraları** yaradıldı.

1970-1971-ci tədris ilində ADPİ-nin nəzdində **Hazırlıq şöbəsi** yaradıldı (müdir dos.R.Ş. Yahyayev) və 4 ixtisasdan (kimya, fizika, riyaziyyat) biri də məhz **coğrafiya** oldu. İlkin olaraq 119 dinləyici qəbul edildi və sonda nəticə yüksək olduğundan 2 yeni ixtisas üzrə dinləyicilər qəbul edildi (tarix və ədəbiyyat).

1971-1972-ci tədris ilində Coğrafiya müəllimi ixtisası üzrə tələbələrin sayı əyani şöbədə 1202, qiyani şöbədə 167 və axşam şöbəsində isə 45 nəfər olmaqla, İnstitut üzrə 11 ixtisas arasında Dil və ədəbiyyat, Riyaziyyat ixtisaslarından sonra **3-cü yeri** tuturdu. Bu artım da əsasən tələbələrin Çöl-Elmi-tədqiqat işlərinə cəlb edilməsi, vizual müşahidələr aparmaları, istehsal müəssisələrində və təbiətdə aparılan ekskursiyalar, topoqrafik və kartoqrafik praktik işlər sayəsində yaranmışdı.

**Fiziki coğrafiya kafedrasına** prof.N.K.Kərəmov rəhbərlik edirdi. Kafedra əməkdaşları fakültənin müstəqilliyi sayəsində daha geniş Elmi-tədqiqat işlərinə start verdilər. Landşaftşünaslıq, coğrafiya elminin tarixi, geologiyanın, hidrogeologiyanın, iqlimşünaslığın, topoqrafiyanın, kartoq-rafiyanın tarixinə aid qiymətli elmi tədqiqat işləri coğrafiya elminə layiqli xüsusi töhvə oldu. Kafedranın tədqiqat işlərində əsasən iki istiqamət özünü daha aydın göstərirdi: Respublikada istehsalın inkişafı və yerləşməsi, Xəzər dənizinin neft və balıq sərvətindən səmərəli istifadə. Kafedranın əməkdaşlarından dos.V.N.Nəbiyev, baş müəllim F.A.Hüseynova, dos.P.S.Mirzəyev, dos.O.U.Osmanov, dos.M.İ.Rəcəbov, dos.B.S.Cəfərov, dos.A.Q.Hüseynov, dos.O.M.Rzayev, dos.Z.M.Əfəndiyev coğrafiyanın müxtəlif sahələri üzrə Azərbaycan ərazisində çöl tədqiqat işləri, canlı müşahidələr, əhali arasında müsahibələr aparmaqla, ölkə ərazisini tədqiqat meydanına çevirərək, diyarşünaslıq baxımından coğrafiya elminə yeniliklər gətirən qiymətli elmi əsərlər yazmışdılar. M.M.Hacıyevin, T.X.Zülfüqaro-vun, A.S.İbrahimovun, A.A.Məmmədovun və M.B.Rəsulovanın namizədlik dissertasiyaları Elmi Şurada yüksək qiymətləndirildi və müfadiə uğurla başa çatdı.

1969-cu ildə fəaliyyət göstərən **İqtisadi coğrafiya və Coğrafiyanın tədrisi metodikası kafedra**sına dos.N.N.Allahverdiyev rəhbərlik edirdi. Kafedranın Elmi-tədqiqat işləri əsasən 3 istiqamətdə aparılırdı:

-Azərbaycanda istehsal sahələrinin inkişafı və yerləşməsi;

-Xəzər dənizində balıq ehtiyatları və neft təbii sərvətindən səmərəli istifadə və onun inkişaf perspektivləri;

-Coğrafiyanın tədrisinin aktual problemləri. Hər üç sahədə kafedranın əməkdaşlarından dos.N.N.Allahverdiyev, dos.A.N.Əsədov, dos.H.A.Sadıxlı, dos. E.Q.Mehralıyev, X.A.Vəliyev, dos.S.V.Məmmədov, S.R.Qaramollayev, dos. L.İ.Nəsibzadə, baş müəllim D.T.Əfəndiyeva və b. gecəni gündüzə qatıb, əzmlə elmi tədqiqatlar aparırdılar.

ADPİ-nin coğrafiyaçılarının namizədlik (fəlsəfə doktoru) dissertasiyalarının elmi-coğrafi məzmununun əhəmiyyətini yüksək qiymətləndirərək, gənc tədqiqatçıların elmi ədəbiyyat kimi istifadə etmələrinə şərait yaratmaq məqsədi ilə monoqrafiya şəklində çap olunmasına rəy verildi. Dos. M.İ.Zeynalovun yalnız müəllimlər və tələbələr, coğrafiyaşünaslar üçün deyil, həm də Azərbaycan vətəndaşları üçün böyük əhəmiyyət daşıyan "Coğrafi terminlər" adlı monoqrafiyası coğrafiya sahəsində uğurlu tədqiqat işlərindən biri idi.

**12 fevral 1970-ci ildə 74 №-li Əmrə** əsasən Coğrafiya fakültəsi yenidən Biologiya fakültəsinin tərkibinə daxil oldu. Coğrafiya şöbəsinə dos.Mehralıyev Eybalı Qara oğlu dekan müavini təyin edildi. Fakültənin tərkibində yalnız iki-Coğrafiya və Coğrafiyanın Tədrisi Metodikası kafedrası var idi.

2000-cı ildə Çağırışaqədərki Hazırlıq fakültəsi Coğrafiya fakültəsinə birləşdirildi. Fakültə **Coğrafiya və Çağırışaqədərki** hazırlıq adlandı. Qısa müddət ərzində fakültədə 2 buraxılış **Coğrafiya və turizm ixtisası**da açıldı, Azərbaycan və rus dillərində iki qrup təhsil almağa başladı. Dos.Mustafa Əliyevin deknalığı dövründə fakültənin nəzdində cəmiyyətin təhsilə olan eytiyaclarını qismən ödəmək üçün **ekologiya** və **menecment** işxisasları yaradıldı. Fakültənin tələbələrinin sayı 704-ə çatdı. Onlardan 280 nəfəri Coğrafiya, 114 nəfəri Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı, 200 nəfəri menecment və 110 nəfəri ekologiya ixtisasında təhsil alırdı. Fakültədə 100-dən çox magistraturada təhsil alanlar vardı.

Coğrafiya fakültəsi yarandığı gündən fakültəyə bir sıra görkəmli alimlər rəhbərlik etmişlər: professorlardan R.Z.Qafarova, N.N.Allahverdiyev, Ş.G.Həsənov, X.Ə.Vəliyev, dosentlər S.B.Məmmədov, N.Əsədov, Y.Q.Əliyev, sonra əməkdar müəllim, dos.M.C.Əliyev, dos.M.M.Əsgərova.

2016-cı ilin mart ayında Coğrafiya və çağırışaqədərki hazırlıq fakültəsi iki yerə ayrıldı. Coğrafiya müəllimliyi Tarix fakültəsinin tərkibinə birləşdirildi.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 9 mart 2016-cı il tarixli Elmi Şuranın 3/87 saylı Əmri ilə Tarix fakültəsi və Coğrafiya və Çağırışaqədərki Hazırlıq fakültəsi birləşdirilərək **Tarix və coğrafiya fakültəsi** yaradıldı.